Crowe Horwath Business Alliance üzvü
MAK Azərbaycan Ltd
AZ1023, Azərbaycan, Bakı, Salyan şossesi 2, bina 2, m. 19/20; Tel: (+994 12) 492 78 56, 437 41 56, 437 41 47;
Faks: (+994 12) 437 41 26; E-mail: makbaku@auditmak.az; www.auditmak.az

MR- 016

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

«Qala Həyat» Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin
Səhmdarlarına və İdarə Heyətinə
Azərbaycan Respublikası, Bakı şəhəri,
Tbilisi pr-ti, 1058 kvartal.

Biz «Qala Həyat» Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2012-ci il tarixinə mühasibat balansı, mənfəət və zərər haqqında, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Rəhbərlik göstərilən maliyyə hesabatlarının Maliyyə Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Bizim vəzifəmiz isə həmin maliyyə hesabatları üzrə apardığımız auditə əsaslanaraq rəyin bildirilməsidir. Audit beynəlxalq audit standartlarına uyğun olaraq aparılmışdır. Həmin standartlara uyğun olaraq, bizdən auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə əmin olacaq tərzdə həyata keçirmək tələb olunur. Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlanan məlumatı dəstəkləyən sübutun test əsasında yoxlanılması daxildir. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir. Biz inanırıq ki, apardığımız audit rəy bildirilməsi üçün kifayət qədər əsas verir.

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2012-ci il tarixinə cəmiyyətin mühasibat balansı və bu tarixdə başa çatmış il üzrə mənfəət və zərər və pul vəsaitlərinin hərəkəti üzrə Maliyyə Nazirliyinin normativ sənədlərinə və digər qanunvericilik aktlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

«MAK Azərbaycan LTD» MMC-nin
auditoru Nail Seyfulla

5 aprel 2013-cüil
Bakı, Azərbaycan Respublikası